

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# SEVGİM HAQDAN GƏLDİ...

## Söz dəstəyim dostlardan

**Oturub baş verənləri izlədikcə və izlədiyimi də ağlının süzgəcindən keçirdikcə çevrəndəki dayazlığı və bir də niyə yaşadığını anlaya bilmirsən. Bir dəli sual kəsir qarşını: Bu çərəylə, bu baş verənlərlə və ümumiyyətlə, mövcudluğunla kimə lazımsan? Nəyi dəyişirsən? Nəyi düzənləyirsən? Təbii ki, doğmalar dərhal deyəcək ki, ədalətsiz olma, sən bizə lazımsan, bizim üçün yaşayırsan və biz də səni sevirik. Ovcumun içi kimi bilirəm ki, bu hər evdə olan söhbətdi. Ailənin bütün üzvləri bir az ağrı-acısı, bir az narahatlığı olan valideynə həmişə belə deyir. Amma içdən gələn sözlər nə əsəbi sakitləşdirir, nə çevrəni yenidən formalaşdırır, nə də həyatın boynuna yüklədiyi yükün ağırlığını yüngülləşdirir. Necə deyərlər, çax-çax öz işini görür. Bu dəyirmanın çax-çaxına ancaq gördüyü işin suyunu kəsməklə "dur!" demək olar. Onu da etmək heç də asan deyil. Axı...**

Bəli, hər kəsin içərisində bir "amma", bir "axı" var. Bunlar da yenə deyirəm, ailəylə, doğmalarla, dostlarla, təbii ki, bir də içindəki sevgiyə bağlıdır. Onlardan ayrılmaq, onları nisgilli qoymaq və digər məqamlar heç də asan başa gəlmir. Daha doğrusu, bu saydıqlarımı etmək həm günahdı, həm də hardasa acizlikdi. Odur ki, elə özünə çəkilmək, öz məcranda axıb getmək və bununla da az-çox bacardığını yerinə yetirmək zənnimcə, ən düzgün seçimdi. Özü də bu seçim özəl olduğundan kimlərinsə haqqına girmək də deyil. Bir az da obrazlı desəm, özün öz başınla, özün öz ürəyinlə çiyin-çiyinə çıxıb gedirsən. Yol boyu gördüklərinə "salam" da verirsən, "salam" da alırsan... büdrəyənin əlindən tutursan və beləcə, gedirsən... yolunu tutub gedirsən... İndi özünüz gətirin gözləriniz önünə və görün ki, bir adam yolun ucundan tutub necə gedir. Gedə-gedə də üzü Tanrıya dua edir. O duanın əks-sədası içimdəki misralara çevrilir. Çünki hər şey "ol"dan "öl"ə getdiyi kimi, əvvəl də sona doğru gedir. Mən də onu misralayıram və yazıram:

**Hər gün bir son yazılır**
**Hər gün də ki, bir əvvəl...**
**Sıralanır ardıcıl -**
**İki sondu, bir - əvvəl!..**

**Çox da ki, alaqlanır**
**Dərd, kədər qalaqlanır...**
**Elə ki, calaqlanır -**
**Olur o son, sirr əvvəl...**

**Duman dağdan şal - düşür**
**Aha, ünə xal düşür...**
**Bəzən, qalmaqal düşür -**
**Kilsəmi, ya pir əvvəl...**

**Eh... olsa da gözüm nəm**
**Heç olmadı gözü dəm!**
**İndi çözür gözüm qəm -**
**Kiprikdi, ya tir əvvəl...**

Bəli, əslində əvvəl Tanrı hökmüdü, son da onun qoyduğu nöqtə. Mən bir az şairlik edib nəyi nə iləsə müqayisə etməyə cəhd göstərdim. Və bilmirəm bu cəhdim nə qədər ədalətlidi və yaxud da hansı ölçüdə günahdı. Sadəcə, ürəyimə, ruhuma söykənib özüm də hiss etmədən hər gün bir sonun yazıldığını, hər gün bir əvvəlin başladığını pıçıldadım. Onu Allahın eşitdiyinə və Sənin də duyduğuna əminəm. Elə bu əminliklə də davam etdiyim yolun dəyişməz olduğuna bir daha inandım. Axı mən Sözün və Sənin işığına gedirəm. O sözün ki, onu Tanrı pıçıldayır... o sözün ki, o haqdan gəlir. Və biz haqqa sadiq olanlar zərrəciklər olsaq belə, milyardların içərisində sözümüzü göyərtməyə çalışırıq. Zənnimcə, sözü göyərdənlər, yəni söz yaradanlar bütün hallarda və bütün müstəvilərdə öndə dayanmağa layiqdilər. Ən azından ona görə ki, onlar haqdan gələni bəndələrə çatdırırlar. Və hətta mən elə indicə sənə yazdığım duyğuların da misralanmış formasını haqqın pıçıltısı kimi qəbul etmişəm. O pıçıltı yəqin ki, müəyyən ruhları oxşayacaqdı. Mən yazmışam ki:

**Sən vuran ilmələri**
**Yuxu kimi yozuram...**
**Yozduqlarımı sonra**
**Məktub kimi yazıram -**
**Sənə...**

**Sən hörən hörükləri**
**Gözlərimlə açıram...**
**Etdiyim şıltaqlıqdan**
**Küsən kimi qaçıram -**
**Səni...**

**Sən qaçıran gözlərə**
**Baxdıqca düşünürəm...**
**O sığışmır sözlərə**
**Deməyi düşünürən -**
**Sənə...**

**Sən göyərdən ümidi**
**Dodağından dərirəm...**
**Onun puçurladığı**
**Ürəyimi verirəm -**
**Sənə!..**

Məgər bu günahdımı? Yoxsa, bu hissləri yaşamaq özü qəbahətdi? Ümumiyyətlə, sevgi, həssas duyğular, ruhla söhbət, xəyal, yuxu, kimin bostanına atılan daşdı? Niyə biz iç dünyamızı yazmağa çəkinirik, sıxılırıq? Mənə görə sıxılmaq barədə ən ədalətli hökmü Seyran Səxavət verib. Hələ neçə on il bundan öncə deyib ki:

**Sıxma ürəyini, ürək cəhənnəm,**
**Axı sən ordasan, sən sıxılarsan.**

İndi əlinizi ürəyinizin üstünə qoyun və Allah qarşısında etiraf edin: Seyran Səxavətin möhürünü vurduğu bu fikrin yozumu, mənası kimin haqqını tapdalaya bilər? Kim bundan böyük sevgi etirafını ortaya qoya bilər? Əgər kimsə bu sevgini günah sayırsa, günahı öz boynunda qalsın. Mənsə o günaha batmağa bütün varlığımla hazıram. Hətta Seyran Səxavətin həmin şeirinin təsiri altında bir neçə yazı-pozu da etmişəm. Lap elə bu günlərdə sənə yazmışam ki:

**Axı ürəyimi güzgü göstərmir**
**Niyə yüklənmədin gözlərimə sən?**
**Cavabdan həmişə gülməklə qaçdın -**
**Qaçanda dedin ki, gözlərimdəsən!**

**Hər gün kipriyimi şehlə yuyuram**
**Baxıb içimdəki sənə, uyuram...**
**Yerdən də, göydən də aşkar duyuram -**
**Ürəyim də sənsən, gözlərim də sən!**

**Əbülfət qibləni bir kərə seçir**
**Qəmi də bal kimi ləzzətlə içir!**
**Hər gün deyəcəyəm qəlbindən keçir -**
**Qorxma, sıxılmazsan gözlərimdə sən!..**

***

Bütün fikirlərin bir kökü, bir dayaq nöqtəsi olur. Necə deyərlər, fikir nəyinsə əsasında formalaşır. Bu yerdə yadıma rəhmətlik Vaqif Səmədoğlunun "Evləri köndələn yar" tamaşasındakı bir deyim düşür. Orda qız sevdiyi oğlana deyir: "Mən ot deyiləm ki, yerdən çıxmamışam ki, bizim də üç dostmuz, beş düşmənimiz var...". Bax, indi mən fikirlərimi bilgisayara diqtə edəndə çox açıq-aşkarca hiss etdim ki, sevginin dostu da, düşməni də yetərincədi. Təbii ki, bu "dost-düşmən" məcazi mənada işlətdiyim fikirdi. Yəni yaşım, başım sevgi barəsində nə qədər həssas nüanslara toxunmaq imkanımı bir az da kölgələyir. Demək istəyirəm ki, oxucu olaraq hər kəs bu yaşın sevgisinə fərqli bucaq altından baxır. Hətta mən mərhum xalq artisti İlhamə Quliyevanın "Yaşın və fərqi var" məşhur mahnısını ürəyimdən keçiririb özümə təsəlli verirəm. İstəsən sən də bu təsəlliyə qoşula bilərsən. Ən azından ona görə ki, söhbət mənim sənə sevgimdən gedir. Və bu sevginin bütün məqamları əslində həm də insanın mənəvi dünyasının psixoloji durumunu da diqqət mərkəzinə çəkib gətirir. Beləcə, bunun özü də getdiyin yolun bir ilməsi, bir naxışı olur. Təbii ki, yolun dolayları, dolamaları həm də elə o ilmələrin əlamətləridi. Bu əlamətləri də sözə çevirmək, kağıza köçürmək özü-özlüyündə həm də kimlərəsə təsəlli məktubudu, təsəlli ismarıcıdı. Mən də həyatımın o bəlli günündən başlanan bu özəl duyğuların ölçüsü kimi indi də yazdığıma, sözə çevirdiyimə nə peşman deyiləm, nə də diqqətsiz qala bilmərəm. O da bu gün çox duyğuları kökləyir. Hətta bu şeirin yaranmasına səbəb olur:

**Səs - həyatdı, işıq - həyat**
**Sən səsini işığa qat!**
**Mənim ömür axarımda -**
**İşıq dolu dönəm yarat...**

**Səsin qida, işığın od**
**Birgə oldu qəlbimə kod...**
**Elə et ki, sən gəldiyin -**
**Eşq yolunda bitməsin ot.**

**Səs və işıq - yozumu yar**
**Bunun bircə yozumu var...**
**Bu yozumla, bu biçimlə -**
**Sar, sən mənim ruhumu, sar!**

**Pərvanəni qurban elə**
**Səs və işıq olan selə!**
**Yaratdığın yeni dönəm -**
**Ötüşməsin elə belə...**

Bəli, hər addım izdi... hər söz tarixdi... hər duyğu sevgi və yaxud da nifrətdi. Mən öz ömür yolumda sözün, duyğuların əlindən tutmağa cəhd etmişəm. Onlar mənə az qala Tanrı dəstəyi, az qala göydən sallanan ipucu qədər təkan verən olub. Yapışmışam dördəlli o ipucundan, başlamışam getməyə. Gedə-gedə də yalnız düşündüyüm heç kimin haqqına girməyən, heç kimin sərhəddini pozmayan və heç kimi də incitməyən bu sevginin işığı olub. Elə bir işıq ki, dan ulduzu qədər, göy üzünün ülkərləri, səyyarələri qədər parlaq və özəl olublar. Bu özəl ulduzların ömür ulduzuna çevrilməsi təbii ki, Tanrı işidi. Mən də bir Tanrı bəndəsi olaraq o ulduzlara da, o ülkərlərə də, elə Tanrının özünə də əl açaraq az qala dua kimi yazmışam:

**Sən məni tamarzı qoyma gözlərə**
**Ürəyim, baxmaqdan doyma gözlərə!**
**Sıxma kipriyini, qıyma gözlərə -**
**Ruhum da göynəyir belə olanda.**

**Yaddaş xırman yeri, duyğular zəmi**
**Kiprikdən ruhuma çəkirəm nəmi.**
**Duyanda telinin ucunda qəmi -**
**Ruhum da göynəyir belə olanda.**

**Dolaşıq salıram söhbəti, sözü**
**İçimə damdıqca kipriyin közü...**
**Səndə yaş görəndə gözümün gözü -**
**Ruhum da göynəyir belə olanda.**

**İçimi üyüdür içimin ahı**
**Edib bu məqamda seçimi ahım...**
**Üzülmüş görəndə elçimi ahım -**
**Ruhum da göynəyir belə olanda.**

**Hə, söz-sözün davamı, söz-sözü çəkib aparan bir gücdü. Yəni birinci söz önə düşüb getdikcə, ardınca çəkib gətirəcək düşündüklərini, içinin həssas məqamlarını və bir də demək istədiklərini. Bax, bu mənada mən kimsəni yormadan, kimsənin vaxt haqqına girmədən sözümün nöqtəsini qoymaq istəyirəm. Düşünürəm ki, bu mövzunun davamı olacaq. Çünki həmkarım, dəyərli jurnalist və dizibərk kişilərdən olan Faiq Qismətoğlu mən bu yazını diqtə edəndə öz replikasını etdi və bilgisayar yazarımız Gülər xanım da ona dəstək verdi. Mən də istəmərəm ki, onların sözü havada qalsın. İnşallah, bacardığım kimi onların da sözünün qarşısına öz sözümü çıxaracam!..**